# *MÜƏLLİMİN ÖZÜNÜTƏHSİLİ ÜÇÜN*

## Qloballaşan dünyada miqrant problemi: sosial-fəlsəfi yanaşma

**Fəridə Səyədulla qızı Cəbrayılova**
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*Sumqayıt Dövlət Universitetinin baş müəllimi*
**E-mail:** cebrayilova_fira@mail.ru

**Rəyçilər:** f.ü.e.d., prof. S.Y. Hüseynov,
f.ü.f.d., dos.V.A. Ömərov

**Açar sözlər:** qloballaşma, miqrant, qlobal miqrasiya, miqrasiya siyasəti, beynəlxalq miqrasiya

**Ключевые слова:** глобализация, мигрант, глобальная миграция, миграционная политика, международная миграция

**Key words:** globalization, migrant, global migration, migration policy, international migration

Müasir dünyanın inkişafında bir-birinə zidd olan iki əsas tendensiyanın qovuşması müşahidə olunur - qloballaşma və qlokallaşma anlayışı ilə ifadə olunan regionalizasiya. Qloballaşma prosesləri milli və beynəlxalq stabilliyin intensivləşməsinə səbəb olan əsas amillərdən birinə çevrilir. Hal-hazırda qloballaşma proseslərinin yaratdığı dəyişikliklər ailə münasibətlərindən idarəetmə formasına qədər ictimai həyatın müxtəlif sahələrinə təsir göstərir. Məhz belə ümumbəşəri dəyişikliklər fonunda böyük əhəmiyyət kəsb edən miqrasiya axınının intensivləşməsi də müşahidə olunur; miqrasiya tarixən xarakterik bir fenomen kimi yeni forma və xarakter alır.

Qlobal miqrasiya axınına, bir qayda olaraq, bir neçə dövləti əhatə edərək dünya dövlətlərinin sosial-iqtisadi və demoqrafik inkişafına əhəmiyyətli təsir göstərən əhali yerləşmələri aiddir. Əhalinin formalaşmasında və iqtisadiyyatın inkişafında miqrasiyanın rolu etdikcə artır. Bunu nəzərə alaraq, XXI əsri "qlobal miqrasiya əsri" adlandırmaq mümkündür (3).

Qlobal miqrasiya prosesləri müasir dünyanın ayrılmaz tərkib hissəsidir. Qloballaşma və texnoloji tərəqqi insanların geniş kütlələrinin hərəkətini müasir dövrün mütləq qaydalarından birinə çevirmişdir. İnsanların kütləvi köçü çox zaman müvəqqəti hal daşısa da, əhalinin müəyyən bir ölkədə daimi yaşaması məqsədi ilə müşayiət olunan miqrasiya prosesləri də əhəmiyyətli dərəcədə geniş miqyas almışdır.

Ənənəvi olaraq miqrasiyaya əhalinin yeni yaşayış məskəninə köçməsi ilə bağlı yerləşmə aid edilirdi. Qloballaşma dövründə bu proses nəinki daha da intensivləşdi, eyni zamanda daha rəngarəng şəkil aldı ki, bu da "miqrasiya" termininin çərçivəsinin genişlənməsi zərurətini yaratdı. Bu gün miqrasiyaya daha çox əhalinin işi, təhsili, turizm və kommersiya fəaliyyəti ilə bağlı yerdəyişməsi aid edilir ki, bu da daxili və beynəlxalq məzmun daşıya bilər. Onu da vurğulamaq yerinə düşər ki, istənilən dövrdə dünya xalqlarının və regionların inkişafına təsir edən əhəmiyyətli miqrasiya axınları mövcud olmuşdur. Belə ki, Roma imperiyasının süqutunun nəticəsi olan "xalqların böyük köçü" erkən feodal dövlətlərinin yaranmasına və müvafiq olaraq Avropanın etnik, mədəni və siyasi simasını kökündən dəyişdirilməsinə gətirib çıxardı.

Bu gün miqrasiya artıq qlobal hadisədir. Demək olar ki, bütün dövlətlər nəinki miqrasiya

proseslərinin içərisindədir, hətta onların iqtisadi, siyasi vəziyyəti, mədəni həyatı, etnik-vətəndaş tərkibi və bütövlüyü bu prosesdən asılıdır. Hazırda iqtisadi və informasiya axını ilə yanaşı, miqrasiya axını da dövlət və dünya ictimai münasibətlərinin quruluşuna və sisteminə təsir edir: belə ki, problemin mövcudluğu bir çox suallar doğurur ki, bunların həlli çox zaman yalnız beynəlxalq səviyyədə mümkündür.

Miqrasiya sosial dialektikanın təzahürlərindən biridir və buna görə də çox zaman sosial-fəlsəfi cəhətdən araşdırılır. Miqrasiyanın sosial-fəlsəfi problematikası öz tərkibi etibarilə əsas fəlsəfi anlayış və kateqoriyalardan təşkil olunmuşdur (fəaliyyət, proses, həyatın obrazı, məkan, zaman, varlıq, şəxsiyyət, hakimiyyət, mədəniyyət, sosial fərd, dövlət, tarix, hüquq, inkişaf, vətəndaş cəmiyyəti, siyasət, dəyərlər, maraqlar və s.). Bu müasir dövrdə sosial fəlsəfənin ümumfəlsəfi baxışlara müraciət etməsinin göstəricisidir. Prosesin əsas mahiyyəti miqrantların rifaha və təhlükəsizliyə can atması ilə bağlıdır.

Miqrasiya problemlərinə sosial-fəlsəfi yanaşmanın məqsədi miqrasiya proseslərini anlamaq üçün ortaq konsepsiya hazırlamaqdır. Miqrasiya fenomeninin ziddiyyətli qavranılması və eyni zamanda müasir cəmiyyətdə insanların hərəkətliliyinin artması şəraitində sosial fəlsəfə bizə sosial hərəkatların öyrənilməsi üçün konstruktiv metodoloji prinsipləri inkişaf etdirməyə imkan verir. Beləliklə, sosial-fəlsəfi araşdırmalar mühacir axınına dair müxtəlif şərhlərin və münasibətlərin nəzəri əsasına çevrilir.

Sosial-fəlsəfi təhlil çərçivəsində miqrasiya mövzusu eyni zamanda sosial dinamikanın perspektivləri, mədəniyyətlərarası qarşılıqlı əlaqələrin xüsusiyyətləri, miqrantların sosial-psixoloji adaptasiyası və etnik identiklik problemi, onların yad etnik mühitdə tanınması və s. kimi problemləri əhatə edir.

Lokal və regional hərbi münaqişələr, təbii fəlakətlər və texnogen qəzalar, aşağı həyat səviyyəsi, siyasi proseslər və s. miqrasiyanın səbəblərindəndir. İtalliyalı filosof Giorgio Ağambenə görə, mühacir hərəkatının kütləvi sayıldığı dövrlər I Dünya müharibəsindən sonra başlayır və üç milyona yaxın Avropalı öz ölkəsindən başqa torpaqlara köç edir (1, 47).

BMT Baş Assambleyasının Ümumdünya İnsan hüquqları Bəyannaməsinin qəbulu ilə hərəkət azadlığı hüququ beynəlxalq səviyyədə tanınmağa başlayır: "Hər bir insan hər bir dövlətin hüdudları daxilində sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququna malikdir" (6).

XXI əsrin əvvəllərində miqrantarın sayının 97, bəzi mənbələrdə hətta 120 milyon nəfərə çatdığı qeyd olunur (2, 39).

Qlobal çağırış olan miqrasiya miqrantların köç etdikləri ölkələrin stabil inkişafı üçün təhlükə hesab olunur. Miqrasiya probleminin sosial mahiyyətindən çıxış edərək qeyd etmək olar ki, bütün mənfi sosial təzahürlər miqrasiyanı daima təqib edir. 172 ölkənin, o cümlədən Azərbaycanın da daxil olduğu Beynəlxalq Miqrasiya Təşkilatının əsas missiyası miqrasiya proseslərinin humanistləşdirilməsi və sadələşdirilməsidir ki, təşkilat bu məqsədlə yarandığı 1951-ci ildən etibarən 11milyon miqranta yardım göstərmişdir.

Beynəlxalq miqrasiya problemi qloballaşan dünyanın gündəliyində duran prioritet məsələlərdən biridir və demək olar ki, qloballaşmanın özüdür. Bildiyimiz kimi, qloballaşma dövlətlərin, xalqların birləşməsi, sərhədlərin itməsi prosesi və belə demək mümkünsə, vahid iqtisadi, siyasi, mənəvi məkanın yaranmasıdır. Qloballaşma prosesi sistemli xarakter daşıyaraq bütövlükdə cəmiyyəti əhatə edir, bəşəriyyətin yeni elmi-texniki nailiyyətlərdən bəhrələnməsini təmin edərək qadağaları aradan qaldırır.

29-30 noyabr 2011-cil il tarixlərində Moskvada Miqrasiya və miqrasiya siyasətinin aktual problemlərinə həsr olunmuş Beynəlxalq Elmi Konfrans keçirildi. Konfransda ABŞ, Rusiya,

Serbiya, Tacikistan, Ukrayna, Belarusiyadan iqtisadçılar, sosioloqlar, tarixçilər, politoloqlar, demoqraflar iştirak edirdi. Konfrans nümayəndələrindən olan Y.V. Sivkova görə, cari nəhəng yerdəyişmələrin qarşısını almaq mümkünsüzdür (4, 528).

Miqrasiyanın müxtəlif səbəbləri içərisində sosial-iqtisadi faktorların xüsusi çəkisi var. Lakin ayrı-ayrı dövrlərdə müxtəlif ölkələr üzrə miqrasiyanın səbəbləri kimi siyasi, milli, dini faktorlar birincilikdə yer alır. Təbii ki, miqrantın köç etməsinin səbəbi yaxşı həyat axtarışında olması ilə əlaqədardır.

Ksenofobiya - əcnəbi qorxusu insanın tamamilə təbii və izah edilə bilən bir xüsusiyyətidir. Əvvəllər heç zaman rastlaşmadığı birisi ilə qarşılaşan fərd qorxu, maraq və narahatçılıq yaşayır. İstənilən cəmiyyət üçün miqrantlara, daha doğrusu, başqa ölkələrdən gələrək özləri ilə nəinki yeni bilik, bacarıq, hətta xüsusi dünyagörüşü və yeni stereotiplər gətirmiş əcnəbilərə qarşı maraq və qorxu hissləri xarakterikdir. Hər hansı ölkəyə köç edən miqrantların yeni bir cəmiyyətdə təzahürü say azlığı ilə müşayiət olunarsa, bu, bəzi anlaşma və rəğbətlə qəbul edilir, lakin belə bir mövcudluq həddi aşdıqda, yerli əhali öz etnik kimliyinə təhlükə hiss etməyə başlayır və miqrantlar irqçilik problemi ilə üzləşməli olurlar.

Digər bir tərəfdən, vəziyyət o zaman ağırlaşır ki, birdən-birə yad cəmiyyətdə peyda olan miqrant az bir zaman kəsiyində onun adət-ənənəsinə, məişətinə, mədəniyyətinə nüfuz edə bilmir: çox zaman sosial proseslərin iştirakçısı deyil, müşahidəçisi qalmaqda davam edir. Bu gün dünya böhranının ən inkişaf etmiş ölkələrdən də yan keçmədiyini nəzərə alsaq, bir çox hallarda mirqantların daha yaxşı yaşamaq ümidlərinin puç olduğu halların mümkünlüyü də istisna olunmur: iş tapmağın mümkünsüzlüyü, məişət problemləri ilə bağlı çətinliklər, yerli vətəndaş kimi tam hüquqlarının olmaması və bunların nəticəsində - dərin depressiya.

S. Hantington məşhur "Sivilizasiyaların toqquşması" əsərində dini və mədəni dəyərlərə söykənən fərqli sivilizasiyalar arasında münasibətlərin kəskinləşməsini diqqət mərkəzinə çəkir. Belə ki, etnik mədəniyyət, etnik dil, dini kimlik, digər etnik qrupların stereotipli qəbul edilməsi və s. məsələlər ziddiyyətli sosial-mədəni amillər kimi miqrantlarla onları qəbul edən cəmiyyət arasında etnik-milli sərhəd hesab olunur.

Miqrasiya prosesləri təkcə əhalinin çox böyük kütləsinin həm ölkə daxilində, həm də ölkə sərhədlərindən kənarda yerdəyişməsinə səbəb olmur, eyni zamanda cəmiyyətin siyasi-iqtisadi həyatını dəyişir, ölkə və regionlarda əhali artımına, insanların demoqrafik davranış stereotiplərinə, əmək bazarlarında iqtisadi resurslara, ev sahibi hesab olunan cəmiyyətlərdə sosial gərginliyin səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Qloballaşma demək olar ki, bütün dövlətlərin miqrasiya proseslərinə cəlb olunmasına gətirib çıxarır. Qlobal miqrasiya pozitiv potensial ilə yanaşı sosial kimlik, etnik və mədəni identiklik, miqrantları qəbul edən cəmiyyətə inteqrasiya kimi ciddi ziddiyyətlərlə müşahidə olunur.

Avropa Birliyinin əsas ölkələri yüksək yaşayış səviyyəsi ilə seçilir ki, bu da oraya mühacir axınının əsas səbəblərindən biridir. Tolerant avropalılar qonaqlarını qəbul edərək onları yaşayış şərtləri ilə təmin etdilər. Lakin mültikultural siyasət nəhəng qaçqın kütləsi qarşısında "çat verdi". Mədəni "plüralizmi qorumağa və saxlamağa hesablanan bu siyasət (7) Avropa ölkələrinin yerli xalqları ilə mühacirlər arasında sosiomədəni münaqişələrlə baş verən yeni problemləri həll etmək iqtidarında olmadı. Vəziyyət, mühacirlərin yeni cəmiyyətə inteqrasiya olunmaqdan imtina edərək anklav yerləşməkdə davam etmələri ilə daha da mürəkkəbləşir. Bəzi qruplaşmalar etnik-dini kimliklərini saxlamaqda radikallaşır və bunu yerli mədəniyyətə zorla tətbiq etməyə çalışırlar.

Miqrant qruplarının yeni cəmiyyətə inteqrasiya etmək istəməməsinin iki yolu mümkün he-

sab edilə bilər:

1. Bu və ya digər məqsədə çatmaq, hər hansı hüququ əldə etmək üçün dinc, daxili səfərbərlik;

2. Fundamentalizm, cəmiyyətdən uzaqlaşma, onunla hər hansı əlaqədən imtina - məhz bu yol ən təhlükəli və münaqişəlidir.

İkinci yolu Avropa Şurasının Fransa, Almaniya kimi ölkələrində müşahidə etmək mümkündür. "Üçüncü dünya" ölkələrindən köç edən mühacir çoxluğu bu dövlətlərin hökumətləri və yerli insanları üçün nəhəng bir problem yaratdı və yaratmaqda da davam edir. Müasir Avropa iki mədəniyyət, iki dəyər və identifikasiya, ənənəvi (bağlı) və post-ənənəvi(açıq) sistemlərin toqquşması səhnəsinə çevrilməkdədir (8).

Bu gün miqrasiya prosesləri həmçinin məcburən köçürülən insanların öz doğma yurdlarından məhrum olmalarına da yol açır. Bu mənada qlobal miqrasiyanın yaratdığı problemlər müasir dünyaya inteqrasiya edən və eyni zamanda işğalçı Ermənistan dövlətinin təcavüzünə məruz qalan Azərbaycan Respublikasından da yan keçməmişdir. Belə ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının nəticəsi olaraq Suriyadan köç edən və dünyanın başqa ölkələrindən gələn ermənilər məcburi qaydada Azərbaycanın işğal altındakı ərazilərində məskunlaşdırılır. Bu da beynəlxalq konvensiyalara ziddir (5).

Qloballaşma dövründə miqrasiyanı səciyyələndirən cəhətlər aşağıdakılardır:

— ölkələr və qitələr arasında olduğu kimi, ayrı-ayrı dövlətlərin daxilində də miqrasıyanın əhatə dairəsinin əhəmiyyətli dərəcədə genişlənməsi,

— əvvəllər hərəkətsiz olan sosial-demoqrafik qrupların da miqrasiya proseslərinə cəlb olunması,

— yeni miqrasiya formalarının yaranması, məsələn, işgüzar miqrasiyanın (biznes miqrasiya) güclənməsi,

— miqrasiya axınlarından trans-milli cinayətlərdə istifadə olunması və miqrantların cinayətkar şəbəkələrin qurbanlarına çevrilməsi,

— "əvəzedici" miqrasiyanın mənfi təzahürü və milli miqrasiya siyasətinin dəyişilməsi (3, 79).

Bu gün qloballaşma şəraitində miqrasiyanın sosial və iqtisadi nəticələri çox zaman cəmiyyətdə sosial gərginliyə, siyasi mübarizə vasitəsinə çevrilir. Buna görə də indi dünyada və ayrı-ayrı ölkələrdə baş verən miqrasiya proseslərinin ayıq, dərin, obyektiv qiymətləndirilməsi həmişəkindən daha çox vacibdir.

Yekun olaraq onu deyə bilərik ki, qloballaşma şəraitində miqrasiya prosesləri həm miqrantları qəbul edən ölkələrdə, həm də onların tərk etdikləri regionlarda sosial-iqtisadi qurumların, dilin, mədəniyyətin, davranış qaydalarının müxtəlifləşməsinə səbəb olur: milli sərhədlər milli birlikləri bir-birindən daha az ayırır, mədəni və etnik birlik artıq hər hansı millətin əvəzolunmaz əlaməti olmaqdan uzaqlaşır. Beləliklə, miqrasiyanın ölçüsü artıq milli dövlətlərin ənənəvi anlaşılması üçün problemə çevrilir. Qloballaşma tədqiqatçıları milli dövlətlərin məhv olunma təhlükəsi müddəalarını irəli sürsə də, dövlətlər miqrasiya siyasətinin həyata keçirilməsində aparıcı rol oynamaqda davam edirlər.

**Məqalənin aktuallığı.** Qloballaşan dünyada miqrasiyanın müasir ictimai sistemin spesifik hadisəsi olması ilə əlaqədardır. Miqrasiya prosesi sosial-tarixi, ictimai-iqtisadi və psixoloji amillərlə şərtlənir. Müasir cəmiyyətdə miqrasiyanın öyrənilməsi zamanı dünya nizaminin özü qlobal risk mənbəyinə çevrilir. Bir sözlə, məqalənin aktuallığı – qloballaşan dünyada miqrasiya prosesinin mahiyyətinin sosial-fəlsəfi təhlilidir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik qloballaşan və inteqrasiya olunan dünyada miqrasiya prosesinin sərbəst yerdəyişmə hüququnun reallaşma forması kimi kompleks halında nə-

zərdən keçirilməsidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın nəticələri problemin daha dərindən araşdırılması zərurətilə bağlıdır. Məqalənin ideyasından praktiki fəlsəfi və sosioloji tədqiqatlarda istifadə oluna bilər.

## Ədəbiyyat


1. Agamben, G. Biz mülteciler. Tesmeralsekdiz, 4, Emre Koyuncu (Çev.), 2009, s. 46-53.
2. Зорин А. Миграция: невеликое переселение народов Политика и общество. М., 2009, № 2, с. 34-45.
3. Рязанцев С.В.,.Боженко В.В. Миграция в условиях глобализации. Народонаселение. Институт социально-экономических проблем народонаселения РАН (Москва). 2010, № 4, с.70-82.
4. Сивков Ю.В. Миграция – ящик Пандоры или благо? // Глобальные демографические проблемы современности: миграции и миграционная политика: Сб. статей. М., 2011 с. 528–529.

**İnternet resursları**

1. Muradova Bahar: "Suriya ermənilәri Qarabağda məskunlaşdırılır" http://www.news.lent.az/news/166400; 23.09.2020.
2. Ümumdünya İnsan hüquqları Bəyannaməsi// BMT Baş Məclisinin 1948-ci il 10 dekabr tarixli 217 A (III) Qətnaməsi.Maddə.13.2.// https://www.coe.int/az/web/compass/the-universal- declaration-of-human-rights-full-version-09.12.2008.
3. Война в Югославии 1991-1995, 1998-1999 гг. // Национальная Энциклопедическая служба // URL: http://www.fssb.su/monitor-wars/814-voyna-v-yugoslavii-1991-1995-1998-1999-ggmezhetnic heskaya-voyna-v-yugoslavii-i-agressiya-nato-protiv-soyuznoy-respubliki-yugoslaviya.html 12.09.2009.
4. Джумамухамедов Р. Социокультурный конфликт миграции в современных полиэтнических сообществах.//https://interaffairs.ru/news/show/21450. 21.01.2019.


**Ф.С. Джабраилова**

## Проблема мигрантов в глобализирующемся мире: социально-философский подход

## Резюме

В статье анализируются миграционные процессы в эпоху современной глобализации и проблема мигрантов, не исключенных из этих процессов, с социально-философской точки зрения. Автор попытался описать массовый поток мигрантов сегодня и его проявления. В статье исследуются глобальная миграция, миграционная политика государств и социальные, экономические и политические последствия этой политики.

**F.S. Jabraılova**

## The problem of migrants in a globalizing world: a socio-philosophical approach

### Summary

The article analyzes migration processes in the era of modern globalization and the problem of migrants who are not excluded from these processes from a socio-philosophical point of view. The author tried to describe the massive flow of migrants today and its manifestations. The article examines global migration, the migration policy of states and the social, economic and political consequences of this policy.

**Redaksiyaya daxil olub:** 15.03.2021